# “Aprel yüksəkliyi”nin təqdimatı

❒ ***Nizami Kino Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı, polkovnik Şükür Həmidovun döyüş yoluna həsr olunmuş "Aprel yüksəkliyi" sənədli filmi təqdim olunmuşdur.***

“Azərbaycanın Milli qəhrəmanları” silsiləsindən olan bu ekran əsəri Mədəniyyət Nazirliyinin sifarişi ilə “Salnaməfilm” studiyasında lentə alınıb.

Mərasimdə mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, nazir müavinləri Sevda Məmmədəliyeva və Rafiq Bayramov, nazirliyin kollektivi, hərbçilər iştirak etmişlər.

Əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur.




Tədbirdə çıxış edən kinoşünas, Əməkdar incəsənət xadimi Ayaz Salayev Xocalı soyqırımı haqqında məlumat verərək bildirmişdir ki, bəşəriyyət tarixində ən qəddar cinayətlərdən olan Xocalı qətliamının günahkarları hələ də layiqli cəzalarını almamışlar. Qeyd olunmuşdur ki, qabaqcadan planlaşdırılmış kütləvi və amansız qırğın aktı həmin ərazidə yaşayan insanları məhz azərbaycanlı olduqlarına görə tamamilə məhv etmək niyyəti ilə törədilmişdir.

Milli Qəhrəman Şükür Həmidov çıxış edərək Xocalı soyqırımı, bütövlükdə, Qarabağ müharibəsi haqqında danışmışdır. O, Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun göstərdiyi qəhrəmanlıqlardan ətraflı bəhs etmişdir. Bildirmişdir ki, Lələtəpənin azad edildiyi həmin günlər düşmən öz aləmində gizli tədbirlər həyata keçirirdi. Onlar arxadakı bölmələrini önə çəkirdilər, döyüş təlimləri adına müəyyən qruplaşmalar aparır, artilleriya, motoatıcı, mexanikləşdirilmiş tank bölmələrini önə gətirib ərazilərdə cəmləşdirirdilər. Təbii ki, bizim bölmələr qarşı tərəfin bütün hərəkətini müşahidə edirdi. Baş verənləri təhlil etdikdən sonra anlamışdıq ki, düşmən hücumu ola bilər.





Yanılmadıq... Aprelin 1-dən 2-nə keçən gecə düşmən təxribata başladı. Həmin istiqamətdə hərbi hissə komandiri idim. Baxdım ki, ermənilər açıq şəkildə hücuma başlayır. Həmin vaxt ön xətdə xidmət aparanların hamısı adi əsgərlər idi. Onlar düşmən hücumunun qarşısını rəşadətlə aldılar. Qarşı tərəfə Azərbaycan əsgərinin gücünü göstərdilər. Düşmənə sübut etdilər ki, bu, 1992-1993-cü illərdəki peşəkar zabitlər tərəfindən idarə olunmayan, silah-sursat qıtlığı yaşayan özünümüdafiə bölmələri deyil. Bu, ən müasir silahlarla təchiz olunmuş güclü Azərbaycan Ordusudur. Təbii ki, ermənilərin hücumu bölmələrimiz tərəfindən dayandırıldı, artilleriya bölmələrimiz geri çəkilən düşmənə sarsıdıcı zərbələr endirdi. Bununla düşmən ciddi itki verdi. Daha sonra Lələtəpə yüksəkliyi və ətraf bölgələr qısa əks-hücumla düşmən işğalından azad edildi.

Ş.Həmidov ümidvar olduğunu bildirmişdir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad olunacağı gün heç də uzaqda deyil.

Daha sonra "Aprel yüksəkliyi" sənədli filmi nümayiş olunmuşdur. Filmin ssenari müəllifi və rejissoru Zamin Məmmədov, operatoru Ömər Kutuyevdir.

***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***